*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

15 MART
2022-Cİ İL
№ 005 (152)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## DTX: “GÜRCÜSTANDA TƏHLÜKƏSİZLİKLƏ BAĞLI VƏZİYYƏT TAM NƏZARƏT ALTINDADIR”



Gürcüstanın Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) məlumatında bildirilib ki, ölkədə təhlükəsizlik mühiti ilə bağlı vəziyyət tam nəzarət altındadır.

Qeyd olunub ki, Gürcüstana gələn Rusiya, Belarus və digər ölkələrin vətəndaşları ölkənin təhlükəsizliyi üçün risk yaradan fəaliyyətin həyata keçirilməsinə meylli deyillər.

Məlumatda deyilir ki, son günlərdə Gürcüstana əcnəbilərin, xüsusən də Rusiya və Belarus vətəndaşlarının ölkəyə kütləvi və nəzarətsiz axınları, təxribatçılar, terror qruplaşmaları ilə bağlı dezinformasiyalar yayılır və bu da ictimaiyyət arasında təşviş yaradır.

DTX-dən qeyd edilib ki, cari dövrdə Gürcüstana gələnlərin sayı ötən ilin analoji dövrünün göstəricisini üstələmir.

“Gürcüstan dövləti əcnəbi vətəndaşın ölkə ərazisinə daxil olması ilə bağlı suveren hüququnu qanunvericiliyə və mövcud risk və çağırışlara tam uyğun olaraq həyata keçirir”, - məlumatda vurğulanıb.

## BAŞ NAZİR: “ƏHALİ SAKİT OLMALIDIR, BİZİM ÜÇÜN HEÇ BİR TƏHLÜKƏ YOXDUR”



“Əhali sakit olmalıdır, bizim üçün heç bir təhlükə yoxdur”. Bunu Baş nazir İrakli Qaribaşvili hökumətin iclasında deyib.

O bildirib ki, mövcud çağırışlara və təxribatlara baxmayaraq, hakim komanda ölkədə əmin-amanlığı qoruyacaq.

“Biz vətəndaşlarımız üçün ölkədə sülhü, təhlükəsizliyi və sabitliyi qoruyub saxlayacağıq. Əhali sakit olmalıdır, heç bir təhlükə yoxdur. Biz ölkəni sakit şəkildə qurmağa davam etməliyik”, - deyə Baş nazir bildirib.

O, həmçinin qeyd edib ki, bölgədə çağırışlara baxmayaraq, yüksək iqtisadi artımı saxlamaq üçün birgə fəaliyyət tələb olunur.

## BAŞ NAZİR Aİ-YƏ ÜZVLÜKLƏ BAĞLI RƏSMİ MÜRACİƏT İMZALAYIB



Gürcüstanın Avropa İttifaqına (Aİ) üzvlüyə namizəd statusu almaqla bağlı rəsmi müraciət imzalanıb.

Sənədi martın 3-ü ölkənin Baş naziri İrakli Qaribaşili imzalayıb.

O, ölkə vətəndaşlarına müraciətində bu günü Gürcüstan üçün tarixi gün adlandırıb.

İ.Qaribaşvili qeyd edib ki, müraciət Gürcüstanın Avropaya inteqrasiyası yolunda növbəti önəmli addımdır.

Xatırladaq ki, Gürcütan Aİ-yə üzv olmaq üçün müraciəti 2024-cü ildə etməyi planlaşdırırdı. Ukraynada baş verən hadisələr fonunda Gürcüstan müraciəti vaxtından tez təqdim etməklə bağlı qərar qəbul edib.

## DAVİD ZALKALİANİ TÜRKİYƏLİ HƏMKARI İLƏ UKRAYNADA DAVAM EDƏN MÜHARİBƏNİ MÜZAKİRƏ EDİB



Gürcüstanın xarici işlər naziri David Zalkaliani türkiyəli həmkarı Mövlüd Çavuşoğlu ilə telefon danışığı aparıb. Bu barədə D.Zalkaliani tviter hesabında yazıb.

O bildirib ki, önəmli söhbət zamanı regionda təhlükəsizlik mühiti və Ukraynada davam edən müharibə müzakirə olunub.

XİN başçısının sözlərinə görə, müharibəyə son qoymaq və dialoqa nail olunması üçün beynəlxalq ictimaiyyətin iştirakı və Türkiyənin vasitəçilik səylərinin vacibliyi qeyd olunub, Gürcüstan və Türkiyə arasında yüksək səviyyədə olan münasibətlər vurğulanıb.


Səh. 2 GÖRDÜKLƏRİM, DUYDUQLARIM - Hacı Bəkiroğlu yazır

Səh. 3 ADƏTLƏRİMİZİN DƏYƏRİ - Esmira Ələkbərli yazır

Səh. 4 BİRİNCİ SİNİF ŞAGİRDLƏRİNİN QEYDİYYATI MARTIN 15-DƏN BAŞLAYIR

Səh. 5 İNSANLIĞIN XİLASI DÜŞÜNCƏDƏ GİZLƏNİR - Lamiyə Hacıyeva yazır

Səh. 5 ELEKTRON CİHAZLARA ALUDƏYİKMİ? - Nərgiz Bağırlı yazır

Səh. 5 YARIMÇIQ QALMIŞ XƏYALLAR - Validə Fətullayeva yazır

Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze

Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır


## GÜRCÜSTANDA KORONAVİRUSDAN ÖLƏNLƏRİN SAYI 16 585 NƏFƏRƏ ÇATIB




Martın 15-nə olan son məlumata əsasən, Gürcüstanda koronavirusdan ölənlərin sayı 16 585 nəfərə çatıb. Bu haqda hökumətin xüsusi yaratdığı www.stopcov.ge saytında qeyd edilib.

Məlumatda ölkədə koronavirusa yoluxanların ümumi sayı 1 637 691 nəfər, sağalanların ümumi sayı isə 1 590 380 nəfər olaraq göstərilib.

Martın 15-nə kimi ölkədə ümumi olaraq 2 834 936 nəfər COVID-19 əleyhinə peyvənd olunub. Stasionar nəzarət altında saxlanılanların sayı isə 1 324 nəfər olaraq göstərilib.



## GÖRDÜKLƏRİM, DUYDUQLARIM

Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Bir neçə gün öncə yaxın bir qohumun cənazəsində iştirak edirdim. Gördüklərim, duyduqlarım, illərdi bu səhnəyə aşina olsam da, yenə də məni təəccübləndirmədi desəm yalan demiş olaram.

Cənazə məclisi əslində o cənazənin ailəsinə, yaxınlarına başsağlığı vermək, onların acılarına, dərdlərinə, kədərlərinə ortaq olmaq üçün əhalinin toplaşdığı bir məclisdir. Əslində bu məclisdə rəhmətə gedənin yaxşı əməllərindən danışılmalı, ölüm və bu kimi mövzular haqqında söhbət getməlidir məncə.

Yadımdadır, əvvəllər din xadimləri danışardılar, camaat da onları dinləyərdi və camaatı maraqlandıran dini sualları cavablandırılardı. Ancaq bu gün cəmiyyətin bütün problemləri, siyasət, iqtisadiyyat, texnoloji yeniliklər və s. bu məclislərdə müzakirə olunur. Ancaq gəl gör ki, bir Allah bəndəsindən eşitmirsən deyə ki, ölüm var. Bax bir gün bizi də beləcə uğurlamaq üçün toplaşacaqlar. Özümüzə çəki-düzən verək. Dini məsuliyyətlərimizi yerinə gətirək. Cənazə məclisini xatırladan yeganə əməl isə o məclisə yeni gələnin əllərini açması və mollanın amin deyərək fatihə surəsini oxumasıdır.

Elə bu cənazə məclisində də günün əsas mövzusu olan Ukrayna və Rusiya məsələləri müzakirə mövzusu idi. Zelenskini artist olaraq adlandırıb qınayanımı deyim, Putini təhqir edənimi deyim, yoxsa onu bir siyasi dahi olaraq müdafiə edənimi deyim? Bir addım kənara çəkildikdə isə buradakı qruplaşmanın da iqtisadçı topluluğu olmağa çalışdıqlarını hiss edirsən ki, onların da ölkədəki bahalaşmanın müzakirəsini apardıqlarına qulaq müsafiri olursan. Başqa bir tərəfə də yön çevirirsən, artıq milliləşmiş mübahisəmiz – 5 və 41 mübahisəsi gedir. Partiya rəhbərləri, namizədlər, nə bilim, siyasi xadimlər oturub birlikdə keyf çatırlar, bunlar da burada qardaş-qardaşla onların üstündə mübahisə edirlər. Nəymiş, əfəndim, bunlara seçkiyə adam gətirmək üçün 3-5 lari pul ödəyirlərmiş. İllərdir bir para əkin sahəsinin, mal-qarasının otlaq yerinin, yaşadığı evin reyestrini həll edə bilməyənlər oturub Rusiya-Ukrayna münaqişəsini həll edirlər. Görürsən ki, orta məktəb təhsilini belə tamamlamayıb məktəbi yarıda buraxaraq qazanc dalınca qaçan, heç bir sosial aktivliyi olmayan şəxslər siyasi şərhçi, politoloq, iqtisadçı, nə bilim nəçi kəsiliblər. Xeyr, yanlış düşünməyin, mən kimsəyi təhqir etmək, onun savadına və ya savadsızlığına söz atmaq istəmirəm. Mənim demək istədiyim odur ki, bu kütlə anlayışı olmadığı mövzulardan danışmaqları yerinə bildikləri mövzulardan danışsalar və ya susub o məclisin başına gətirilən din xadimini dinləsələr, yaradılış məqsədləri haqqında məlumat əldə etsələr daha faydalı olar.

İllərdir ağız birliyi edib bir balaca rayonda bir qərar qoya bilmirlər ki, yas yerlərinin hamısında da eyni adət olsun. İndi gəlib dünyanın yönünü, gedişatını dəyişdirməyə qərar verirlər.

Əzizlərim, əgər dünyanı düzəltmək, sülh və əminamanlıq yaratmaq istəyirsinizsə gəlin birinci özümüzdən, öz ailəmizdən, öz ətrafımızdan başlayaq. Gəlin elə qız uşaqlarımızı uşaq yaşda ər evinə yox məktəbə, universitetə göndərək. Oğlanlarımıza "müəllim kimdir ki, səni vurur" demək yerinə, "müəllim haqlıdır, oxumalısan", deyə tərbiyə verək ki, o da üz görüb daha betər əxlaqsızlıqlara əl atmasın. Gəlin müzakirələrimizi bu yöndə aparaq. Özümüzü, öz gələcəyimizi necə qurtara bilərik, övladlarımıza hansı gözəl gələcəyi miras qoya biləcəyimizin söhbətini aparaq.

Kimə deyirsən? Kimdir ki səni dinləyən?

## HÖKUMƏT PREZIDENTI MƏHKƏMƏYƏ VERƏCƏK



Gürcüstan hökuməti Prezident Salome Zurabişvili ilə bağlı ölkənin Konstitusiya Məhkəməsinə müraciət edəcək. Bu barədə hakim "Gürcü Arzusu" Partiyasının Siyasi Şurasının bəyanatında bildirilib.

Sənəddə qeyd olunub ki, dövlət başçısı xarici siyasətin həyata keçirilməsi prosesində ölkə konstitusiyasını pozub və Konstitusiya Məhkəməsi bunu təsdiq etməlidir.

Hakim partiyadan bildirilib ki, son bir il ərzində prezidentin hökumətin irəli sürdüyü səfir və ya diplomatik nümayəndənin təyinatından imtina etməsi ilə bağlı çoxsaylı hallar olub və bu da konstitusiya ilə kobud şəkildə ziddiyət təşkil edir.

Bəyanatda həmçinin vurğulanıb ki, dövlət başçısının hökumətlə razılaşdırılmadan xarici ölkələrə bir neçə səfəri də konstitusiyanın pozulmasıdır və hakim partiya buna siyasi cavabın verilməsini zəruri hesab edib.

"Gürcü Arzusu" S.Zurabişvilinin konstitusiyanı qəsdən pozması ilə bağlı şübhəsini gizlətməyib.

## HAAQA MƏHKƏMƏSİ CƏNUBİ OSETİYA SEPARATÇILARININ ÜÇ KEÇMİŞ RƏHBƏRİNİN HƏBSİNİ TƏLƏB EDİR




Haaqa Məhkəməsinin Baş prokuroru Kərim Xan 2008-ci ildə Rusiya-Gürcüstan müharibəsi zamanı törədilmiş hərbi cinayətlərə görə Cənubi Osetiya separatçılarının keçmiş 3 rəhbər şəxsinin həbsini tələb edir. Bu barədə Beynəlxalq Cinayət Məhkəməsinin məlumatında bildirilib.

Qeyd olunub ki, Mixail Mindzaev, Qamlet Quçmazov və David Sanakoev 2008-ci ilin avqustun 8-dən 27-dək olan dövrdə azadlıqdan qanunsuz məhrum etmə, işgəncələr, qeyri-insani davranış, ləyaqəti alçaldan hərəkətlər, girovların götürülməsi və qanunsuz yerdəyişmə kimi cinayətlər törədiblər.

K.Xan bildirib ki, Nümayəndələr Palatası müraciətini təmin etsə, qeyd olunan şəxslərin saxlanılması ilə bağlı katibliklə sıx əməkdaşlıq edəcək.

Qeyd edək ki, M.Mindzaev 2005-ci ildən 2018-ci ilin oktyabrına qədər Cənubi Osetiyanın "daxili işlər naziri", Qamlet Quçmazov "DİN"in istintaq təcridxanasının rəisi, D.Sanakoev isə "prezident"in insan haqları məsələləri üzrə nümayəndəsi olub.

Xatırladaq ki, Haaqa Məhkəməsi 2008-ci ilin avqust müharibəsində törədilmiş cinayətlərlə bağlı araşdırmalara 2016-cı ilin yanvarın 27-dən başlayıb.

## BİR MİLYON VƏTƏNDAŞIN QUMAR OYUNLARINA ƏLÇATANLIĞI MƏHDUDLAŞDIRILIB



Martın 1-dən Gürcüstanda onlayn kazinoları tənzimləyən qaydaların sərtləşdirilməsi ilə bağlı qanun qüvvəyə minib. Qanunla, təxminən, bir milyon vətəndaşın qumar oyunlarına əlçatanlığı məhdudlaşdırılıb.

Yeni qaydalara əsasən, yaşı 25-dən az olan vətəndaşlara, dövlət qulluqçularına, sosial müavinət alanlara, məhkəmə qərarı və ya ailənin tələbi əsasında "qara siyahı"ya daxil edilmiş şəxslərə kazino oyunları qadağan olunub.

Bununla yanaşı, oyun biznesinin televiziya və çöl reklamı, gürcü saytlarında reklamı da qadağan edilib. Reklama yalnız sponsor müqaviləsi əsasında idman tədbirlərinin keçirildiyi məkanlar və hava limanlarında icazə veriləcək.

# ADƏTLƏRİMİZİN DƏYƏRİ



Orta məktəbdə oxuyanda ilk dəfə fizika ilə tanışlıq məni yaman əsəbləşdirmişdi. Mexanika qanunları tamam həyatda gördüyümüz gerçəklərin elmi əsasını təşkil edirdi. Həmişə əlimdən nəsə yerə düşəndə düşünürdüm ki, yəqin yer daha güclüdür, kağızı, qələmi çəkir. İndi öyrəndim ki, bu, ağırlıq qüvvəsi imiş. Daşı suya atanda ətrafında dalğa yaradır və artıq suyu kənara atırdı. Deməli, daş gəlib artıq suyu öz evindən qovur. İndi bildim ki, bu da Arximed qüvvəsi imiş və sair. Bunları öyrəndikcə alimlərə çox acığım tutmuşdu. Qoymadılar ki, bizə də qanun qala, hamısını yazıblar, deyə Nyutona da, Arximedə də hirslənmişdim. Mən bunların hamısını bilirdim. Nə vardı ki, onlar yazmasaydı, mən kəşf edə bilərdim...

Mənim bu fikrim o zaman xeyli əks-səda verdi, amma mən təbiəti öyrəndikcə qanunlar qəlizləşdi. Mən təbiəti də sevdim, elmləri də. Bəlkə də yaxşı o tərəfi oldu ki, təbiəti anlayaraq onun həyati tərəfini dəyərləndirdim.

Fizika, kimya, biologiya, astronomiya, eləcə də tarixin axarlarında bu elmlərin tətbiqi, əsası, həmçinin bəşər övladının təbiət qanunlarını məişət qanunlarına tətbiqi insanı valeh edirdi.

Elmdən yaşam həyatımıza keçdikdə hər bir qadağanın, olmazın arxasında bir elm dayandığının şahidi olmamaq mümkün deyil. Üzərində sancaq gəzdirməkdən qida qadağalarına qədər bütövlüklə bir elmdir. Elə bizim nənə-babalarımız sən demə Arximedsiz, Nyutonsuz, lap belə Nitşesiz alim idilər. Bəli, buna zaman, həyat təcrübəsi lazım idi. İllərin təcrübəsi gözəl bir adət-ənənə yaratdı. Bizim babalarımız təbiət sirlərindən yaratdılar həyat fəlsəfəsini bu alimlərdən xəbərsiz.

Təbiət elmləri məzunu kimi bütün adətlərimizin arxasında dayanan böyük elmi əsaslara söykənən hikmət xəzinəmizin hər xırdaçılığını açmaq olar. Hamısı haqqında danışmaq olar. Zamana uyğun desək, astronomiya, biologiya, geologiyanı özündə birləşdirən milli bayramımız – Novruz və onun adətləri necə də tam hesablanıb, tarixə möhürünü vurub Arximedsiz, Nyutonsuz, Nitşesiz.

Başlanğıc bayramı Novruz gəlişiylə təbiəti silkələyir. Çərşənbələr o qədər düzgün hesablanıb ki, ilk Su çərşənbəsi gəlir. Bu zaman hava mülayimləşir, sular əriyir, çaylar dolur. Suyun bolluğu o deməkdir ki, torpağın donu əriyib. Sonra istilik gəldi – Od çərşənbəsi. Sulanan torpaq istiləndi, sanki yuxulu adam gərnəşdi – torpaq oyanmaq istədi, amma hələ gücü çatmır, qış yuxusundan təzə ayılır. Növbəti hesablamanı küləyə bağladılar. Küləyin səsi, zəhmi, burulğanı torpağı sürətlə oyatdı. Suyunu dadıb, istisini alıb silkələnən torpaq növbəti həftə dərindən nəfəs aldı. Bu, yeni günə, aya, ilə başlanğıcdı. Novruz – yeni gün bu deməkdir.

Günəşdən uzaqlaşan planetimiz də "gendən dolanır". Həmin o hirsləndiyim alimlər hesabladılar ki, Günəş Yaponiya tərəfdən çıxıb hərlənə-hərlənə Cənubdan Şimala yol alır, ekvator xəttinə çatanda Yerdə gecə ilə gündüz bərabərləşir. Buna elm yaz bərabərliyi nöqtəsi desə də, biz bunu Novruz adlandırdıq.

Novruzun hər adətində olan böyük psixoloji və fizioloji dəyərləri yazmaqla bitməz. Bir neçəsi ilə bölüşək:

Tonqaldan hoppanmaq. Od və su mənfi enerjini götürür (ağırlığım, uğurluğum bu imiş);

İlk Novruz suyunu içmək;

Gecə-gündüz bərabərləşəndə planetdə bir müsbət enerji dalğası əmələ gəlir. Bu dalğa suya da çökür;

Güclü kalorili yeməklər;

Novruzun şəkərburası, paxlavası və s. qışdan çıxan orqanizm üçün əvəzsizdir. Bu kalori nəinki vitamin, mineral toplusu, həm də oyanan təbiətdə sağlam, güclü işə başlamasına zəmanət verir. Duzlu köppəcənin yeyilməsi belə qışdan çıxan insanın mineral ehtiyatına kömək məqsədi daşıyır, eləcə də süfrəyə kökə (zərdə) qədər tərəvəzlərin də qoyulması.

Yeni geyim yeni ruh yaratmaq – sevinc hissini aşılamaq və s.

Adətlərin hamısı haqqında geniş məlumatlar var. Mən olmayanları, öz fikrimi yazıram. Ola bilsin ki, bunlar haradasa yazılıb, amma mən onsuz da özüm kəşf edəcəkdim.

Axır çərşənbədə qapı pusulur və düz çıxır. Yuxu fizioloji prosesdir. Əslində şüuraltı olan proseslərdir. İnsan özü hər şeyə qadirdir. Sadəcə ona stimul verən, məcbur müsbət yola istiqamətləndirən biri lazımdır (motivasiya). Bu lazımlılıq daxili inamdır. İnamla yuxuya gedən insan onu narahat edənlər haqqında düşünməsə də şüuraltı fikri oradadır. Təbii ki, yuxunu da elə o istiqamətdə görür. Xoş niyyətlə yuxuladığından xoş da yuxu görür. Sonra nə olur? Bu gün görülən yuxu çin olur, özünə inamıyla həmin məqsədə doğru addımlayır, nəticədə arzu yerinə yetir. Bu da psixologiya!

Bilmirəm, bildiklərinizimi yazdım, amma mənə elə gəlir ki, bizim Novruz qədər əhatəli heç bir bayram yoxdur. Bizim doqquz iqlim qurşağı ərazimiz bayramın əhatəsini geniş edir.

P.S.

Bizim Novruz 2009-cu ildə YUNESKO tərəfindən Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib, 2010-cu ildən isə BMT 21 martı Beynəlxalq Novruz Günü kimi qeyd edir.

Çox sevindirici haldır ki, bu ildən Gürcüstanda azərbaycanlılar yaşayan bölgələrdə təhsil müəssisələrində 21 mart qeyri iş günü kimi Novruz bayramı qeyd olunacaq. Var olsun Gürcüstan dövləti!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

## TÜRKİYƏ SƏFİRİ: TÜRKİYƏ TƏRƏFDAŞ, QONŞU, DOST ÖLKƏLƏRİN ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİNƏ DƏYƏR VERİR VƏ DƏSTƏKLƏYİR



"Rusiya bu gün suveren ölkə olan Ukraynanı işğal edir, onun ərazi bütövlüyünü, beynəlxalq qanunları pozur. Bu, region, insanlar, Rusiyanın özü üçün də yanlışdır". Bu fikirləri Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun (Rondeli Fondu) Tbilisidə Ukraynadakı vəziyyət mövzusunda təşkil etdiyi müzakirələrdə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvü kimi dünyada sülh və əmin-amanlığın qorunub saxlanılması ilə bağlı əlavə məsuliyyət daşıyır.

Səfir Türkiyənin Ukraynanın yanında olduğunu qeyd edib: "Türkiyə tərəfdaş, qonşu, dost ölkələrin ərazi bütövlüyü və suverenliyinə dəyər verir və dəstəkləyir. Türkiyə Ukraynaya kömək etməyə hazırdır və yardımını əsirgəmir".

F.C.Yazqan bildirib ki, Türkiyə NATO-nun üzvü kimi Ukrayna məsələsində tərəfdaşlarla həmrəydir: "NATO bu münaqişənin nə bir hissəsi, nə də tərəfidir. Münaqişənin həllində diplomatiya tələb olunur. Bu səylər davam etdirilməlidir. Sülhə nail olunacaqsa, bu hərbi üstünlüyün deyil, diplomatiyanın hesabına olacaq. Türkiyə inanır ki, diplomatiya üçün hər zaman yer olmalıdır. Biz diplomatik səylərimizi davam etdirməliyik. Türkiyənin tək başına bu diplomatiyanı həyata keçirə biləcəyi mübahisəlidir, çünki burada öhdəliyi yalnız Türkiyə daşımır".

Xanım səfir qeyd edib ki, Türkiyə Montrö konvensiyasının müddəalarını tətbiq edir: "Biz hər zaman dediklərimizi yerinə yetiririk. Yerinə yetirə bilmədiklərimizi heç zaman demirik".

Diplomat Ukraynada baş verənləri insanlıq faciəsi adlandırıb: "Ukraynada baş verənlər yalnız Avropanın təhlükəsizliyinə təhdid deyil, bu, insan dəyərləri və ümumi təhlükəsizliklə bağlıdır. Zorakılığa son qoyulması üçün beynəlxalq aləmdə birlik tələb olunur. Rusiyanı inandırmağa çalışmalıyıq ki, baş verənlər heç kəs üçün yaxşı bitməyəcək".

## GÜRCÜSTANIN BUĞDAYA OLAN TƏLƏBATININ 70 %-Nİ RUSİYA ÖDƏYİR



Gürcüstanda çörəyin qiymətinin bahalaşacağı gözlənilir. Buna Gürcüstanın əsas buğda tədarükçüsü olan Rusiyaya qarşı Ukraynaya görə tətbiq olunan sanksiyalar səbəb ola bilər.

Gürcüstanın Çörək Məmulatları İstehsalçıları Assosiasiyasının direktoru Malxaz Dolidze bildirib ki, ölkədə iki-üç aylıq un ehtiyatı var və buna görə də may ayına qədər çörək bahalaşmayacaq.

O qeyd edib ki, buğdanın idxalı ilə bağlı Qazaxıstanla danışıqlar aparılır.

Gürcüstan il ərzində 700-800 ton buğda istehlak edir ki, bunun da yalnız 10 %-i yerli istehsalın payına düşür. Gürcüstanın buğdaya olan tələbatının 70 %-ni isə Rusiya ödəyir.

## MÜƏLLİMLƏRİN KARYERA İNKİŞAFI SXEMİNDƏ DƏYİŞİKLİKLƏR EDİLİB



Hökumətin qərarı ilə müəllimlərin peşə və karyera inkişafı sxeminin təsdiqlənməsi qaydasında dəyişiklik edilib.

Baş nazir İrakli Qaribaşvilinin imzaladığı sərəncamda qeyd olunub ki, ***"Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2023-cü ilin 1 yanvarına qədər xüsusi baş müəllimlərin, 2024-cü dilin 1 yanvarına qədər isə xüsusi aparıcı müəllimlərin imtahan verməsini təmin etməlidir".***

## COVID TESTİ VERMƏK ÜÇÜN MÜƏLLİMLƏRƏ DİREKTORUN ARAYIŞI LAZIM OLACAQ

Baş nazirin qərarı ilə müəllimlərin və məktəb heyətinin COVID testi ilə bağlı qrafikində dəyişiklik edilib. Belə ki, PCR testləri dövlət artıq maliyyələşdirməyəcək və buna görə də ümumtəhsil müəssisələrində işləyənlər həftədə bir dəfə sürətli test verməli olacaqlar.

Ancaq İ.Qaribaşvilinin həmin sərəncamında bir bənd var ki, məktəb heyəti mütləq onu nəzərə almalıdır. Test vermək üçün onlar mütləq iş yerindən arayış təqdim etməlidirlər. Arayışı məktəb rəhbərliyi verəcək: *"Həmin şəxslər test verən zaman müvafiq müəssisədə işlədiklərini təsdiq edən sənəd və ya işlə təmin edən tərəfindən verilmiş müvafiq arayış təqdim etməlidirlər (elektron format da yolverilləndir)"*, - sənəddə qeyd olunub.




## MAGİSTRATURA İMTAHANLARINA QEYDİYYAT APRELİN 4-Ü BAŞA ÇATIR




Ümumi magistratura imtahanında iştirak etmək istəyənlər üçün qeydiyyat martın 7-si saat 10:00-dan başlayıb və 4 aprel saat 18:00-da başa çatacaq.

Qeydiyyat yalnız elektron olaraq **"online.naec.ge"** veb-səhifədə aparılır. Sistem imtahanda iştirak etmək üçün pul ödənməsi barədə məlumatı avtomatik yoxlayır (əgər ödəmə təsdiq olunmazsa tələbə ekranda müvafiq xəbərdarlığı görür və qeydiyyatdan keçə bilmir). Ümumi magistratura imtahanında iştirak etmək üçün ödəniş 50 laridir.

Qeydiyyat zamanı imtahan verəcəyin şəhəri seçmək vacibdir. 4 aprel saat 18:00-a qədər şəhəri dəyişmək mümkündür. Xüsusi imtahan şəraitinə ehtiyac duyan şəxslər qeydiyyat zamanı "xüsusi şərtləri" seçməlidirlər və 14 aprel saat 18:00-a qədər Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə sağlamlıq haqqında müvafiq arayışı (Forma N100) təqdim etməlidirlər.

Ümumi magistratura imtahanında bakalavr dərəcəsi olan (yaxud 2022-2023-cü tədris ili başlayana qədər bakalavr dərəcəsi qazanacaq) və magistratura proqramında təhsilini davam etdirmək istəyən hər kəs iştirak edə bilər.

Əgər iştirakçı dörd hissədən üçündə keçidi aşarsa ümumi magistratura imtahanını uğurla başa vurmuş hesab olunacaq (əgər hansısa proqram hər dörd hissədə müvafiq balın toplanmasını tələb etmirsə).

Ümumi magistratura imtahanını uğurla verdiyi halda namizəd daxili imtahan vermək üçün istədiyi ali təhsil müəssisəsinə müraciət edə bilər.

İmtahanlarla bağlı ətraflı məlumatı isə Milli İmtahanlar Mərkəzinin veb-səhifəsindən əldə edə bilərsiniz.

## BİRİNCİ SİNİF ŞAGİRDLƏRİNİN QEYDİYYATI MARTIN 15-DƏN BAŞLAYIR

Gürcüstanın Təhsil və Elm Nazirliyi birinci sinif şagirdlərinin qeydiyyat vaxtını və şərtlərini müəyyən edib.

**I mərhələ:** Qeydiyyatın ilk mərhələsində – **2022-ci ilin martın 15-dən 26-na kimi** xüsusi ehtiyacı olan uşaqlar məktəblərə qeydiyyat olunacaqlar.

I mərhələdə qeydiyyatdan keçiriləcək uşaqların valideynləri ərizə ilə istədikləri ictimai məktəbə müraciət etməlidirlər. Məktəb rəhbərliyi uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMIS) qeydiyyatdan keçirəcək. Valideyn xüsusi təhsil ehtiyacının təsdiqlənməsi məqsədi ilə məktəbdə müvafiq müraciət forması doldurmalıdır. Bundan sonra multidisiplin komandası tərəfindən uşağın qiymətləndirilməsi və onun təhsil ehtiyaclarının müəyyən edilməsi həyata keçiriləcək. Xüsusi təhsilə ehtiyacı olduğu təsdiqlənərsə məktəb müvafiq sənəd əsasında şagirdin məktəbə qəbul olunmasını təmin edir. Qeydiyyatdan keçmiş uşaqların sənədləri **martın 29-dan aprelin 29-na kimi** təqdim olunmalıdır.

***Xüsusi təhsilə ehtiyacı olan uşaqlar:*** *a) Fiziki məhdudiyyətli; b) İntellektual inkişaf pozuntulu; c) Təhsil qabiliyyəti pozuntulu; ç) Eşitmə və ya görmə qüsurlu; d) Nitq inkişafı pozulmuş; e) Davranış və emosional pozuntulu; ə) Uzunmüddətli hospitalizasiyaya hetiyac duyan; f) Təhsildə sosial faktorlardan yaranmış çətinlikləri olan və buna görə milli tədris planına uyğunlaşa bilməyən; g) Autizm spektri olan.*

Xüsusi təhsilə ehtiyacı təsdiqlənməyən uşaqların valideynlərinə növbəti mərhələdə qeydiyyatdan keçmək imkanı yaradılacaq.

**II mərhələ:** İkinci mərhələdə qeydiyyat **2 maydan 13 maya qədər** mümkün olacaq və məktəbdə qeydiyyatdan keçəcək uşaqlar:

*a) Eyni məktəbə gedən bacı-qardaşlar;*

*b) Valideyni/qəyyumu həmin məktəbin əməkdaşı olanlar;*

*c) Ailədən eyni vaxtda iki və ya daha çox uşaq birinci sinfə gedərsə.*

Bu mərhələdə qeydiyyat valideynin/qanuni nümayəndənin təqdim etdiyi vacib sənədlər əsasında ictimai məktəblərdə həyata keçirilir. Qeydiyyatı məktəb təmin edir.

**III mərhələ:** Ümumi qeydiyyat – **17 mayda başlayacaq və 8 iyuna qədər** davam edəcək.

Qeydiyyat Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində **(registration.emis.ge)** həyata keçiriləcək. Qeydiyyatı valideyn/qanuni nümayəndə aparır. Elektron qaydada qeydiyyatdan keçmiş şagirdin qəbul olunması üçün vacib sənədlərin təqdim edilməsi **13 iyundan 24 iyuna qədər** həyata keçiriləcək. Göstərilmiş vaxtda sənədlər təqdim olunmazsa qeydiyyat avtomatik olaraq ləğv olunacaq.

**IV mərhələ: 28 iyundan 12 iyula qədər** məktəblərdə həyata keçiriləcək. Bu mərhələdə azad edilən vakant, yaxud qalmış boş yerlərə I, II və III mərhələlərdə qeydiyyatdan keçə bilməyən, yaxud qeydiyyatı dəyişmək istəyən şagirdlər qəbul olunacaq.

Şagirdin qeydiyyatının dördüncü mərhələsini valideynin/qanuni nümayəndənin təqdim etdiyi vacib sənədlər əsasında ictimai məktəb təmin edir.

***Birinci sinfə qəbul olunmaq üçün vacib sənədlər isə bunlardır:***

• Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşadığı yer və telefon nömrəsi ilə bağlı məlumat olmalıdır;

• Şagirdin doğum şəhadətnaməsinin və ya şəxsiyyəti təsdiq edən sənədin surəti və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin surəti (belə hal olarsa).

2022-2023-cü tədris ili üçün 15 sentyabra qədər 6 yaşı tamam olmuş uşaqlar məktəblərə qeydiyyatdan keçə biləcəklər.

Nazirlik valideynləri qeydiyyat müddəti və şərtlərə diqqət yetirməyə çağırıb ki, uşağı vaxtında və maneəsiz məktəbə qeydiyyat edə bilsinlər.

***Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.***
***Gürcü dilindən tərcümə etdi: Aynurə ƏLİYEVA***

# İNSANLIĞIN XİLASI DÜŞÜNCƏDƏ GİZLƏNİR



Son zamanlar bu mövzu şəxsən məni çox narahat edir. Şəxsimi cəmiyyətin bir hissəsi olaraq gördüyüm üçün belə səhnələri görmək məni kədərləndirir. Necə ola bilər ki, bir canlının zülm gördüyü səhnə başqalarına əyləncə kimi gəlsin?

Bunun olması insanlığın kədərini artırmaqdadır.

Yolda gedərkən küçə heyvanlarına işgəncə edərək gülüb qəhqəhə atanlardanmı deyim, bunu çəkib sosial şəbəkələrə yayanlarımı deyim, videonu izləyənlərin üzünün təbəssümünümü deyim? İki insanın bir-birinə zülm verməsini üçüncü şəxslərin əyləncə ilə izlədiyinimi deyim?

İnsan olaraq insanlığımıza yaraşmayan davranışlardan son dərəcə qaçmalı və başqalarını da bundan çəkindirməli deyilikmi biz? Bəs nə oldu bizə?

Dünyanın aldadıcı gözəlliyi gözlərimizin önünə bir pərdə kimi çəkildi, biz insanlar həqiqəti görməyəcək qədər kor olduq. Bəzən də gördük, ancaq susacaq qədər lal olduq.

İnsanoğlunu qurtaracaq əhəmiyyətli amillərdən birisi də düşünməkdir, düşünərək davranmaqdır. Bilmirəm səbəb nədir, ancaq bir qisim insanların düşünməyi kənara qoyaraq, beynini yuxu rejiminə alaraq yaşadıqlarının şahidi oluruq. Düşünmək zərərli deyil ki, əksinə düşünməmək zərərlidir, həm də elə bir zərəri var ki, həm bu günümüzü, həm sabahımızı təsir altına almaq qədər zərərlidir.

İnsanlığın xilası düşüncədə gizlidir. Yaradılmış bütün məxluqatdan bizi üstün edən də elə məhz düşünmə, qərar vermə qabiliyyətimiz deyilmi?

Biz bu qabiliyyəti kənara qoyaraq, yoxmuş kimi yaşayaraq bizi üstün edən o amili aradan çıxarırıq və yaradılmış heyvanlar aləmindən fərqsiz hala gəlirik. Bunu bizə kimsə etmir, bunu biz özümüz özümüzə edirik.

Düzdür, insanlardan daha etibarlı olan heyvanlar aləmi mənsublarını da burada nəzərdən kənarda saxlamamalıyıq.

Bizlərə verilən bu mükəmməl lütfü biz gözardı etməməliyik. Bu lütfdən istifadə edək ki, bugünümüz və sabahımız daha gözəl və yaşanılacaq bir mühit halına gəlsin.

**Lamiyə HACIYEVA**
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şöbəsinin sədri*

# ELEKTRON CİHAZLARA ALUDƏYİKMİ?



Mən elektron cihazlara aludəyəmmi? Çoxumuz bu sualı özümüzə vermişik. Əvvəlcə asılılıq nədir və aludə olan insan necə olur sualına cavab verək. Asılılıq insanın nəzarətsiz şəkildə istifadə etdiyi, onsuz yaşaya bilməyəcəyi, iradəsini itirdiyi, ixtiyarsız olaraq bütün vaxtını və fiziki enerjisini sərf etdiyi maddə və ya hərəkəti əhatə edir. Bu davranış insanlara və ətraf mühitə zərər verir. Bundan əlavə, bu istifadə və davranış insanın vaxtının böyük bir hissəsini alır. Bu gün biz elektron cihazdan asılılıq problemi ilə çox qarşılaşırıq. Günümüzün çox hissəsini elektron cihazlarla keçiririk və elektron cihazlarla işləyirik. Heç düşünmüsünüzmü ki, elektron cihazlar sizi idarə edir, yoxsa siz onları idarə edirsiniz?

21-ci əsrə qədər televizor və radio yeganə elektron media idi. O dövrlərdə elektron cihazlardan yalnız lazım gəldikdə istifadə olunurdu. Telefon sadəcə telefon idi. Amma indiki vaxtda cibimizə asanlıqla yerləşə bilən bu kiçik cihazla çox şey edə bilərik. Məsələn, istədiyimiz insanlarla asanlıqla əlaqə saxlaya, istədiyimiz zaman zəng edə, yaza, oyun oynaya, istənilən video və ya filmə baxa, sosial şəbəkələrdən istifadə edə, istədiyimiz zaman şəkil çəkə bilirik və s. Biz yeni nəsil olduğumuz və müasir texnologiya əsrində doğulduğumuz üçün bu cihazlardan uzun müddət istifadə etməyin heç bir zərərini görmürük. Halbuki, valideynlərin çoxu bu cihazlardan az istifadə edin deyə dəfələrlə xəbərdarlıq etmişlər, amma çoxumuz buna əhəmiyyət verməmişik.

Hesab edirəm ki, elektron cihazların zərərli cəhətləri hər kəsə məlumdur. Amma diqqət etmədiyimiz cəhətləri düşündüyümüzdən də çoxdur. Sosial mediaya çox vaxt itiririk ki, bu da akademik performansımıza daha da təsir edir. Məsələn, sosial şəbəkələrə daxil olduğumuz zaman onun təsirindən qurtula bilmirik. Şəxsən mənim özüm saatlarla məşğul oluram. Sonra görürəm ki, oxumaq və əlavə işlə məşğul olmaq üçün vaxtım tükənib. Bu, hər kəsdə də belədir, mənimlə razılaşın, dəhşətlidir, sosial media insanları zəncirləmək qabiliyyətinə malikdir, üstəlik sosial şəbəkələrə aludə olan insanlar dəhşətli dərəcədə aqressiv olurlar. Sosial media bizi tez-tez virtual həyat sürməyə və real münasibətləri itirməyə və ya bağlanmağa məcbur edir. Sosial şəbəkələrdə yayılan oyunlar çox vaxt uşaqların və yeniyetmələrin psixikasını sarsıdır. Üstəlik sağlamlıqlarına da pis təsir edir.

Sosial mediadan danışa biləcəyimiz çox şey var. Hamımızın öz fikirlərimiz və fərziyyələrimiz yetərincədir. Hər şeyin müsbət və mənfi tərəfləri var, amma 21-ci əsrdə sosial mediasız həyatı təsəvvür etmək mümkün deyil, bunu şəxsi təcrübəmə əsaslanaraq deyirəm. Elə bir gün keçmir ki, istifadə etməyə ehtiyacım olmasın. Elektron cihazlar həyatı birtərəfli edib. İstər-istəməz deyə bilərəm ki, o, artıq həyatımızın bir parçasıdır. Elektron cihazların sizi idarə etməsini istəmirsinizsə, lazım olduqda onlardan istifadə edin. Elektron cihazlara çox az vaxt sərf edərək gündəlik planlarınızı yazın.

*Nərgiz BAĞIRLI*

# YARIMÇIQ QALMIŞ XƏYALLAR



Qızlar təhsil ala bilməzlərmi? Hər zaman ətrafımda olan insanlara bu sualı verirəm. Ancaq aldığım cavablardan çoxu heç də gözlədiyim kimi olmur. Aldığım cavabların çoxu "Qızlar oxuya bilməzlər, istədikləri işlə məşğul ola bilməzlər. Ancaq oğlanlar harada istəyirlər orada da işləyə və təhsil ala bilərlər" olur. Axı niyə? Qızların da təhsil almaq hüququ yoxdurmu? Onlar da istədikləri işlə məşğul ola bilməzlərmi? İnsanların belə düşünmələri bir çox azyaşlı qızların həyatını məhv edir. Hətta onları yetkin yaşına çatmamış ailə həyatı qurmağa məcbur edirlər. Günümüzdə belə hadisələr çoxdur.

Azyaşlıların zorla evləndirilməsi onlara təkcə fiziki deyil, həm də psixoloji olaraq pis təsir edir. Qızların erkən evliliyə deyil, qayğıya, təhsil almağa ehtiyacları var. Qanunların olmasına baxmayaraq bir çox valideynlər övladlarını zorla ailə həyatı qurmağa məcbur edirlər. Bu da gələcək üçün yetişdiriləcək fərdin normal təlim-tərbiyədən məhrum edilməsidir. Övladlarının fikrini belə soruşmadan onların həyatını göz görə-görə məhv edirlər. Övladınızı erkən evliliyə məcbur etməkdənsə, təhsilə təşviq edin. Onların uşaqlığını, gələcəklərini, həyatlarının ən gözəl günlərini əllərindən almayın.

İnsanlar belə fikirləşməyə davam etsələr gələcəkdə həkim, müəllim, rəssam, mühəndis və digər ixtisaslarda sadəcə oğlanlarmı işləyəcək? Bu düşüncə düzgün deyil. Oğlanlar və qızlar bərabər hüquqludurlar. Ayrı-seçkilik etməyin!

Bu yazını belə bir hadisəyə şahid olduğum üçün yazıram. Qız məktəbdə çox yaxşı oxuyurdu. Gələcəkdə mühəndis olmaq istəyirdi. Mən gələcəyin ən bacarıqlı mühəndisi olacam, hər kəs məni gördüyüm gözəl işlərə görə tanıyacaq deyirdi. Amma istədiyi kimi olmadı. Xəyalları yarımçıq qaldı. Ailəsi onu zorla erkən evliliyə məcbur etdi. İndi bir qız övladı var. Hər zaman çalışır ki, qızı da anasının yaşadığı həyatı yaşamasın. Onun da xəyalları yarımçıq qalmasın. Bir çox qızlar təhsil almağı nə qədər arzulasalar da, istədikləri olmur. Təhsil almaq onların xəyallarında qalır. Pəncərə qarşısında durub bayıra baxdıqda beli çantalı, əlində kitab, dəftər olan qızları gördüklərində hər zaman xəyal qurduqları anlar yadlarına düşür. "Mən bu qızın yerində ola bilərdim. Mənim də belimdə çanta, əlimdə kitab, dəftər ola bilərdi" dedikləri həqiqətdir.

Onları savadsız edən, təhsildən uzaqlaşdıran valideynlərdir. Valideynlərin borcu övladlarına təhsil vermək və onları gələcəyə hazırlamaqdır. Bir çox valideynlər uşaqlarının arzularını əllərindən alib onları tez evləndirirlər. Belə etməklə valideynlik borcunu yerinə yetirdiklərini düşünürlər. Ancaq onlara ən böyük travmanı yaşadırlar. Mustafa Kamal Atatürkün də dediyi kimi: "Buna inanmaq lazımdır ki, dünya üzərində gördüyümüz hər şey qadının əsəridir".

**Validə Fətullayeva**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## Nə vaxtsa ağı qaradan seçməyin vaxtı gələcək

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Ata-oğul münasibətlərinə paxıllığa və şəxsi rifaha görə qırx xain igidin görünməsi ziyan vurur, vəhşilik ilə atanı o dərəcəyə çatdırırlar ki, öz dilədiyi və Tanrının verdiyi oğlunu ölümcül yaralamağa ərk etdirilər. Bu vəhşi igidlərin fəaliyyətinin ortaya çıxması hər şeydən öncə süjetin inkişafını gərginləşdirir, dinamizmə və gərginlə fəaliyyət inkişafını kəsb etdirir.

Bundan başqa, burada insanların müəyyən qrupunun vəhşiliyi, özlərinin rihafı barədə düşünməsi təsvir olunur ki, bu da feodal quruluşda hər yerdə yayılmışdı və ölkənin inkişafının düzgün gedişini dağıdırdı. Konkret halda ata cəngavərə münasib ola bilmir. Lakin yalmız təhlil olunan rəvayətdə özünü göstərən xainlik və vəhşilik Dirsə xanın doğmalıq instinktini üstələyi, oğlu və əzizinə olan duyğuya nisbətən şəxsi "mən"i daha yüksəkdə tutur. Öz təhlükəsizliyi zəminində əmələ gələn şübhəyə görə şəxsi təhlükəsizliyi səbəbi üzündən öz oğluna qıyır. Bu Oğuz etikasının görüş dairəsinə görə məqbul olmayan davranış barədə ozan susur və yox deyir.

Lakin ananın xalq üçün etik və əxlaqi olaraq məqbul olan siması və hərəkəti özözlüyündə atanın nakişi, başqa cür, Oğuz üçün münasib olmayan davranışını ifşa edir. Hər halda Dirsə xanın xatunu necə davranır? Əvvəlcə öz xanına üz tutur:

***"Dilək ilə bir oğul güclə buldum.***
***Yalnız oğul xəbərin, a Dirsə xan, degil mana!***
***Qarşu yatan Ala dağdan***
***bir oğul uçurdunsa, degil mana!***
***Qamın aqan yügrək sudan***
***bir oğul aqıtdınsa, degil mana!***
***Aslan ilə qaplana***
***bir oğul yedirdinsə, degil mana!***
***Qara tonlu, azğun dinlü kafirlərə***
***bir oğul aldırdınsa, degil mana!***
***Xan babamin qatına bən varayım,***
***Ağır xəzinə, bol ləşkər alayım,***
***Azğun dinlü kafirə bən varayım.***
***Paralanub Qazılıq atımdan enməyincə,***
***Yenümlə alca qanım silməyincə,***
***Qol-bud olub yer üstinə düşməyincə***
***Yalnuz oğul yollarından dönməyəyim!"***

Artıq bu müraciətdən də Dirsə xanın xatununun-valideyn olaraq siması yaxşı görünür... O öz oğlunu xilas etmək üçün aslan kimi cəsarətlidir və bunu yalnız təkcə söz ilə deyil, əməl ilə də ifadə edir. Ata minən ana yaralı və ölümə məhkum edilmiş oğlunun izinə düşür və onu acı-acı ağlayır:

***"Qara qıyma gözlərin uyxu almış, açğıl axı,***
***Ol ikicə sünücügün uzun olmiş, yığşur axı,***
***Tanri verən tatlu canın seyranda imiş, endi dəxi,***
***Üz-gözündə canun varsa, oğul, xəbər mana!***
***Qara başım qurban olsun, oğul sana!"***

Sonra müsibətə düçar olmuş ana təbiətə, Qazılıq dağına, çaylara, otlata, ceyranlara qarğıyır və onların məhvini diləyir. Sonra istəyir ki, bilə bu bədbəxtliyi kim törətdi: pələng, yoxsa aslan. Huşa gələn oğul anasına təsəlli verir və ona deyir ki, nahaqdan təbiəti qarğıyırsan. Qazılıq dağının suçu yoxdur, qarğış etmək istəyirsənsə, babama qarğa, bu suc, bu günah babanın üzündəndir *(K.D.Q., səh. 41; D.K.K., səh. 12; O.D.D.K.K. səh. 45).*

Burada daha bir maraqlı cizgi özünü bürizə verir. Oğlanı boz atla və yaşıl libasda görünən müqəddəs Xızır xilas edir və üç dəfə yarasını əli ilə sığallayıb deyir ki, bu yara ölümcül yara deyil, dağ çiçəyi, ana südü yarana məlhəm olacaqdır. Müəyyən olunduğu kimi, dini-mifik aləmdə və ələlxüsus, xalq arasında yaşıl libasa bürünmüş xilaskar Xızırın siması yayılmış idi *(Bu barədə ətraflı, bax: Ocak Ahmet Yaşar, İslam Türk İnanclarında Hızır, yaxut Hızır-İlyas kültü, Türk kültürünü Araşdırma Estitütü, 1989. Eləcə də Elizbar Cavelidze, Türk ədəbiyyatı mənbələri, III, Aşik Paşa, səh. 83-90).* Elə burada unutmamalıyıq ki, oğuzların xalq təbabətində əsas mənbə və vasitə dağ otları və çiçəkləri idi.

Lakin indi elə birinci sözə gələk.

Müəyyən edilir: Bu boyda hadisələrin inkişafı düzxətli, bunun başqa rəvayətləri də xarakterizə etdiyi kimi, deyildir və qırıqlarla və yaxud gözlənilməz sapmalarla inkişaf edir. Belə, məsələn, həmin qırx xain yenə də fəaliyyət arenasına çıxır. Onlar eşidəndə ki, oğlan sağdır, anladılar ki, Dirsə xan onları yaman günə qoyacaqdı. Dirsə xanı tutmaq, kafirlərə yönəltmək qərarına gəldilər. Elə də etdilər – ağ əllərini ardına bağladılar və qıl sicimi boynuna taxdılar. Ağ ətindən qan çıxınca döydülər, önə atdılar və ata minib yola düşdülər.

Lakin bu xainlərin müxənnətliliyini eşidəndə, Dirsə xanın xatunu öz oğluma üz tutdu: "Yüri, oğul, baban sana qıydısa, sən babana qıymağıl" və düşməndən onu xilas elə dedi. Bu da ana-xatunun yüksək əxlaqını göstərir. Biryolluq elə burada deyəcəyəm ki, döyüşçü xüsusiyyətləri ilə gözəlləşən və igid kimi döyüşə cəsarətlə çıxaraq öz oğlunu xilas etmək üçün canından keçməyə hazır olan Dirsə xanın xatununun simasında odövrkü ideal həyat yoldaşı və ana siması verilib. Budur, məhz bu cür qadın tipi oğuzlar üçün tənbəl qadın deyildir, məqbul və fəxrdir. Qadınların siması barədə aşağıda da söhbət açmalı olacağıq və indi yalnız onun bəyanatı üzərində dayanacağam.

Bu cür ananın oğlu ananın qədrini də bilir. Burada qanadlı kəlmə təkrar olunur: "Oğlan anasının sözin sımadı". Bu da Oğuz tayfalarında anaya pərəstişdən və sarsılmaz nüfuzundan xəbər verir. Oğlan namərdləri təqib edir. Onlar bir yerdə dincəlirdilər və qırmızı şərab işirdilər. Onlar Buğacı gördülər, acgözlüyə görə hər ikisini kafirə aparmaq üçün onu da ələ keçirmək qərarına gəldilər. Lakin Dirsə xan onları əmin edir ki, əllərini açsınlar, ona qopuz versinlər və bu yol ilə elə geriyəcə qaytararam dedi. Göründüyü kimi, namərdlər döyüşdən ehtiyat edirlər və xanın tövsiyəsinə inanırlar.

Və nəhayət, ata ilə oğul arasında mahnı ilə bir-birlərini təqdim etmək baş verir. Onlar bir-birini tanıyırlar, xain namərdlərin üzərinə birgə hücuma keçirlər və onları qırırlar. Sonra bir-birlərinə sarılırlar və uzun müddət sevinc yaşlarını tökürlər. Ümumiyyətlə, eposun rəvayətlərinin süjetləri yaxşılıqla, xeyirxahlıqla başa çatır.

Rəvayətlərin kompozisiya kargahı, bir qayda olaraq, Dədə Qorqudun müdrik tövsüyəsi ilə, xanın mədhi ilə, ayinin icrası ilə yerinə yetirilir ki, bu da kompozisiya strukturunun və süjetin məhvərinin sona yetməsinin müəyyən edilmiş qaydasıdır: "Dədəm Qorqud boy boyladı, soy soyladı, bu oğuznaməyi düzdi-qoşdı, böylə dedi:

***Anlar dəxi bu dünyaya gəldi, keçdi.***
***Karvan kibi qondu, köçdi.***
***Anları dəxi əcəl aldı, yer gizlədi.***
***Fani dünya yenə qaldı.***
***Gəlimlü-gedimlü dünya,***
***Son ucı ölümlü dünya"*** *(K.D.Q., səh. 43; D.K.K., səh.15; O.D.D.K.K. səh. 49).*

Rəvayətlərin qapalı müdrikliyinin bu tacqoyucu akkordu "Dədə Qorqud"un rəvayətlərinin əksəriyyəti bir az fərqli müxtəlifliyi ilə sona yetir, bu dünyanın faniliyi, gəlimli-gedimliliyi, ölümün labüdlülüyü açıq şəkildə özünü bürüzə verir. Bunu Dədə Qorqudun dünyanı dərk etməyin mühün mərhələsi, ələlxüsus isə qəhrəmanların davranışlarının şüuraltı mənasının büdpərəstlik qüvvəsi olan əxlaq təliminin təməli kimi hesab edə bilərik.

Halbuki, "Dədə Qorqud"un kompozisiyasının başa çatdırılmasının daha bir mübahisə doğurmayan qayda da mövcuddur. Dədə Qorqud xana xeyir-dua verir, onu şərəfləndirir. Bu xeyir-dua da stereotip xarakter daşıyır. Buna görə də elə burada nümunə gətiririk:

***"Qara ölüm gəldigində keçit versün!***
***Sağlıq ilə sağıncın, dövlətin Haq artırsun!***
***Ol ögdügim yuca Tanri dost olubanı mədəd irsün!***
***Yum verəyin, xanım:***
***Yerlü qara dağların, yıqılmasun!***
***Kölgəlicə qaba ağacın kəsilməsün!***
***Qamın aqan görkli suyun qurımasun!***
***Qanadların ucları qırılmasun!***
***Çaparkən ağ-boz atın büdrəməsün!***
***Çalışanda qara polat uz qılıcı gedəlməsün!***
***Dürtişərkən ala göndərin ufanmasun!***
***Ağ birçəklü anan yeri behişt olsun!***
***Ağ saqallu baban yeri uçmağ olsun!***
***Haq yandıran çırağın yana dursun!***
***Qadir Tanrı səni namərdə möhtac eyləməsün, xanım, hey!"*** *(K.D.Q., səh. 44; D.K.K., səh.15;O.D.D.K.K. səh. 49):*

Artıq qeyd etdiyimiz kimi, xeyir-dua stereotip xarakter daşıyır, daimi və yayılan obrazları (sarp qayalı dağlar, güclü kölgə salan ağaclar, ağ, külrəngli at, qara polad qılınc, ağ birçəkli ana və sair) təkrarlayır ki, bu da folklor üçün xarakterikdir və tamamilə təbiidir. Ümumiyyətlə, unutmamalıyıq ki, invariant obrazlar ilə düşünmək Orta əsrlərin xalq, eləcə də klassik ədəbiyyatının bədii düşüncəsinin mühüm özəlliyidir və ən başlıcası, nəinki qeyri-orjinal rəngkarlıq ilə, eləcə də artıq müəyyən edilmiş obrazların təkrar edilməsi ilə eyniləşdirmənin estetik modeli yaradılır. Məhz elə bu eyniləşdirmənin estetik düzənliyində Oğuz xalqlarının bədii rəngkarlığı da düşünülür ki, bu da simaların, obrazların, affikslərin, cümlələrin və elə götürək, epizodların təkrarlanmasına əsaslanır. Belə ki, istənilən forma ilə, növ ilə təkrar təhlil üçün rəvayətlərin bədii təsviri üçün əsaslar əsasıdır və məhz elə bu prinsip ilə emosiya təsiri ekstratekstin səviyyəsinə çatmışdır. İllah da ki, xeyir-dua, mədh əsərlərinin poetik strukturu, məhz möhkəm ənənəvi və təsis olunmuş obrazların, simaların təkrarı ilə fərqlənir ki, bunu da Dədə Qorqudun yuxarıda gətirilən xeyir-duanın, mədhin icrası təstiqləyir.

Lakin "Dədə Qorqud"un birinci rəvayətinin əxlaqi-estetik modelinin xüsusiyyətləri barədə söhbəti bitirənə kimi, burada şəfəqin yetişdiyi anın təsviri daha münasibdir ki, bu da bizə rəngkarlıq rəsminin bir dəfə çəkilmiş kətanını xatırladır ki, bu da özünün sadəliyi ilə və Oğuz xalqının bədii düşüncəsi üçün xarakterik rəngkarlıqla fərqlənir və onu Oğuz xalqının dolğun estetik zövqünün sübutu və nümunəsi olaraq elə burada göstərirəm:

***"Salqum-salqum dan yelləri əsdigində,***
***Saqallu bozac turğay sayradıqda,***
***Saqalı uzun tat əri banladıqda,***
***Bədəvi atlar issini görüb oğradıqda,***
***Ağlı-qaralı seçilən çağda,***
***Köksi gözəl qaya dağlara gün dəgəndə,***
***Bəg yigitlər-cılasınlar bir-birinə qoyulan çağda alar***
***sabah Dirsə xan qalqubanı yerindən uru durub, qırq yigidin boyma alıb, Bayındır xanın söhbətinə gəlür idi".*** *(K.D.Q., səh. 38; D.K.K., səh. 8; O.D.D.K.K. səh. 40).*

"Dədə Qorqud"un, mənim fikrimcə, Oğuz estetik düşüncəsinin və qavrayışının ən yaxşı nümunəsi olan bu çıxarış ilə birinci boyun təhlilini başa çatdırıram və növbəti "Salur Qazanın evinin yağmalandığı" boyunu gözdən keçirirəm.

*(davamı gələn sayda)*

***Gürcü dilindən tərcümə edən:***
***Mirzə MƏMMƏDOĞLU***

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## SOSİUM
## 11. HOLLAND TƏBƏSSÜMÜ



*(əvvəli ötən sayda)*

Oradan başlayım ki, hollandlar atcıl xalqdır. Onların at sevdalı olmasına dəfələrlə şahid olmuşam. Venloda isə bunu daha da dəqiqləşdirmişəm.

Ölkənin bu tərəflərində atçılıq təsərrüfatlarının tez-tez gözə dəyməsini də vurğulamaq gərəkdir. Kiçik at ilxılarına Niderlandın çox yerində rastlaşmama rəğmən, insanların at sevgisi barədə danışmaq fürsəti əlimə yenicə düşdü və mən də bu fürsətdən yararlanmağı sonraya saxlamadım. Düzdür, yuxarıda bir-iki yerdə atla bağlı nələrsə dediyimi də unutmamışam. Ölkədə ən çox Niderland İstiqanlı yarış atlarına (Dutch Varmbloed) rast gəlinir. Bu cinsin II Dünya müharibəsindən sonra alman atları ilə cütləşməsindən alındığı bəllidir. Niderland İstiqanlı atlarını dünya bazarına da çıxarır və bu atların müxtəlif yarışlarda rekordlar qırması da danılmaz faktdır. Bu atlar qonur, şabalıdı, açıq şabalıdı və boz rəngləri ilə seçilir, onların arasında alaca atlara da rast gəlinir. Ölkədə atların damğalanması yasaqlandığından onlara mikroçiplər yerləşdirilir.

Müharibəyə qədər Niderlandda Gelderland və Groningen qoşqu və yük atları da yetişdirilirdi. Bu cinslərin kənd təsərrüfatının mexanikləşdirilməsindən sonra sayca kəskin azaldığı da nəzərdən qaçmamalıdır. Elə, deyəsən, bu proses dünyanın hər yerində də getməkdədir.

Tez-tez kiçikboylu, uzunyallı, uzunkəkilli kürən, ala atlara da rast gəlmək mümkündür. Bu kiçikboylu atları poni adlandırmaq da insafdan deyil. Amma nə adlandırmağa da bir qərar verməyim lazımdır. Mən özümü dağa-daşa salmadan, heç bir dəqiqləşdirməyə gərək görmədən onları kiçikboylu, uzunyallı adlandırmağa üstünlük verirəm. Bu kiçikboy, uzunyal, uzunquyruq at cinsinin ərəb atları ilə cütləşməsindən meydana çıxdığı da söylənilir. Təlimlərə asanlıqla tabe olduqları, uşaq atçılığının inkişafında mühüm rol oynadıqları da məlumdur.

Ölkədə at yarışlarının keçirildiyini, atlı polis bölmələrinin olmasını da xatırlatdımmı hollandların atcıllığı barədə danışmağı başa vurmuş saymaq olar.

Hər həftə çalışdığım marketin arxasındakı ikimərtəbəli evin ikinci mərtəbəsində yaşlı holland qadının icra etdiyi sirli bir ayini izləməkdən özümü saxlaya bilmirdim. Bu izləməmin yaxşı bir şey olmadığını da bilirdim. Amma hər dəfə bu mənzərəni seyr etmək, nə baş verdiyini anlamaq üçün bu gizli müşahidəmi davam etdirmək marağımı yenə bilmirdim. Ayinin icrası təxminən bu ardıcıllıqla baş verirdi. Qadın ayinə əllərini açıb, nəsə pıçıldayaraq başlayırdı. Hərçənd ki, onun nə pıçıldadığını dəqiq bilmirdim. Sadəcə güman edirdim. Onun dua etdiyindən, görməsəm də qarşısında ikona və ya "İncil"in olmasından əmin idim. Nədən ki, mənim onları görməm imkansız idi. Bir neçə dəqiqə davam edən dua mərasimindən sonra başlayan görüntü isə, ayinin ən maraqlı və yaddaqalan hissəsi olmalıdır. Qadın əlinə aldığı uzun, bu ayinin icrası üçün məxsusi olduğunu güman etdiyim bıçaqlarla hər tərəfə zərbələr endirməyə çalışırdı. Dalbadal sağına-soluna, arxasına-önünə zərbələr yağdırmaqla qadının gözəgörünməz qüvvələrə qarşı vuruşduğu, onlardan xilas olmağa çalışdığı anlaşılırdı. Havanı kəsən bu bıçaqların başqa bir işə yaradığını da düşünmürdüm. Əslində boşluqda havadan başqa kəsiləcək bir şey də gözə dəymirdi. Az-çox etnoqrafiyaya, mifologiyaya bələdliyim burada da köməyimə çatır. Nədən ki, itiuclu, kəsici alətlərin şər qüvvələri qovma, onlardan qorunma yöntəmi olduğunun bizim xalq inamlarımızda da varlığını xatırlayıram. Üstündə sancaq gəzdirməklə, yastığının altına bıçaq qoymaqla pisistər ruhlardan, axar suyu xəncərləyib zahı qadının ciyərlərini yuyaraq öldürmək istəyən əsatiri Hal anasından qorunmaq istəyi holland qadının icra etdiyi ayinlə, bir qədər fərqli də olsa, analogiya təşkil etmirmi? Yaşlı qadının hər həftə bu mistik ayini icra etməsi bizim cin çıxaranlarımızı, sonsuzlara övlad verməyi iddia edənlərimizi yadıma salırdı. Və mən coğrafiyanın fərqinə rəğmən, insanların bələdən qorunmaq üçün XXI yüzillikdə də təxminən eyni üsuldan istifadə etdiklərini sübut etmiş biri kimi rahat nəfəs alıram.

Bir nüansa da diqqət yetirək, lütfən. Mən Niderland insanının işgüzar, çalışqan olmasını bir neçə yerdə altını cızaraq yazmışdım. Buna bir az da fərqli yöndən baxaq. Avropalı işləməyi bacardığı qədər də, qazandığına qiymət verməyi, onun qədrini bilməyi də unutmur. Avropa insanı praqmatikdir, qənaətcildir, az qala qara sentinin qədrini biləndir. Avropalı bəzəkdüzəyə, geyim-kecimə çox da baş qoşmaz. Adi günlərdə işinə-gücünə tələsən holland qadınlarının kosmetikadan istifadə etməsi nəzərə çarpmaz. Burada nəyəsə lazım olandan artıq pul xərcləməyə anormallıq kimi baxılır. Bu, onların simicliyi, xəsisliyi anlamına da gəlmir. Avropa insanı nə Molyerin Qarpaqonudur, nə də Mirzə Fətəlinin Hacı Qarası. Avropalının hər getdiyi toya və ya məclisə təzə bir paltarla təşrif buyurmaq kimi bir adəti də yox. Belə demək mümkünsə, istirahətinə düşkün insana avropalı deyilir. Bizim havaya səpələdiyimiz pullara qənaət edən avropalı dünyanı gəzmək, dəniz kruizinə çıxmaq kimi planlarını gerçəkləşdirir. Etiraf edək ki, hər şey Avropada həyat səviyyəsinin yüksək, maaşların çox olması ilə bağlı deyil. Daha çox avropalının düşüncəsilə bağlıdır.

Niderland insanı gerçəkçidir. Qurduğu xəyalları gerçəkləşdirəndir. Xəyallarının gerçəkləşməsi üçün üsulyöntəm axtarandır. Kreativlik onun düşüncəsinin əsasıdır. Onun öz xəyallarını gerçəkləşdirməsi üçün bir meydan tapacağına da şübhə etməyək. Bizim əksər xəyallarımızı gerçəkləşdirə bilməməyimiz arzu və istəklərimizin qısırlaşmasına səbəb olur. Hər gün saatlarla çayxanalarda vaxt öldürməmizi, beynimizdən keçirdiklərimizi gerçəkləşdirmək üçün bir kiçik təşəbbüs belə göstərməmizi inkar edə bilərikmi? Mənim də sizlərdən biri olmam belə qənaətə gəlməmə yardımçı olur. Küçədə baş-başa verib laqqırtı vuran, tum çırtlayan, vaxtını boşa xərcləyən hollandlara rast gəlmək belə imkansız. Bunun tərsinə ərəb, kürd, türk gənclərinin saatlarla avaraçılıq etdiklərini addımbaşı müşahidə edə bilərik. Acı da olsa deməliyəm, bu, Şərqin Avropaya təqdim etdiyi biabırçı gerçəkliklərindən sadəcə biridir.

Hollandlar sadə həyat keçirməyi daha üstün tuturlar. İmkanları olsa belə lazım olandan artıq pul qazanmağı düşünmürlər. Bədxərc deyillər. Məişət mərasimləri – toyları və yasları təmtəraqdan uzaqdır. Qəbiristanlıqlarda nəhəng məzar daşlarına, qəbirüstü abidələrə nadir hallarda rast gəlmək olar. Hər yerdə olduğu kimi məzarlıqlarda da bir səliqə-sahman, nizam hökm sürür, hər şeyə – torpağa, daşa qənaət edildiyi qabarıq şəkildə nəzərə çarpır. Yaxın dostların iştirakı ilə keçən toy əyləncə üçündür. Fotosessiyalarla yadda qalan bir mərasimdir. Elə düşünməyək ki, bu insanların dəbdəbəli keçən toy-düyündən xəbərləri yoxdur. Var, amma belə mərasimlərin baha başa gəldiyini, yeni evlənənlərin büdcəsinə ağır yük olacağını anladıqlarından dəbdəbədən, təmtəraqdan uzaq bir əyləncəyə üstünlük verirlər. Bəzən heç bu əyləncəyə də gərək qalmır. Yeni ailə quran cütlük uzaqbaşı iki-üç nəfərin iştirakı ilə evliliklərini rəsmiləşdirir. Tanıdığım cütlüyün – türk oğlanla surinamlı qızın məhz belə evlilik yöntəmi seçdiklərinə gözlərimlə şahid olduğumu da söyləyim. Bəzən heç rəsmi qeydiyyata da gərək görməyib, birlikdə yaşamağa qərar verirlər. Evlənməkləri belə, boşanmaqları da bundan sadə – səninki səndə, mənimki məndə. Nə bıçaq çıxartmaq, nə qan tökmək.

Niderland insanının sadəliyi fonunda bizim təmtərağa meyilli olmamız çox qabarıq görünür. Biz nə qədər desək də, tez-tez təkrarlasaq da gerçəklikdə əməl etmədiyimiz "dünya malı dünyada qalacaq" deyimimizin məna yükü mənasızlıq kimi görünür. Dilimizin səsləndirdiyi bu deyimin əksinə, sanki biz daha çox dünya malına bağlanırıq, bir az da fəlsəfi desək, mənəvidən maddiyə yuvarlanırıq. Və nə qədər qəribə olsa da, varlanmaq kimi bir ehtirası olmayan hollandla müqayisədə biz daha çox maddiyə bağlı, acgöz, tamahkar, hər şey mənim olsun deyən, közü öz qabağına çəkən təsiri bağışlayırıq. Bu o qədər üzdə olan, gözlə görünəndir ki, kimsənin bunu inkar edəcəyini də düşünmürəm. Bəs, hanı bizim dərviş könüllüyümüz? Bunu yalnız dilimizdəmi yaşadırıq? Bəlkə Avropa insanının gözü dünya malından doyub? Bəlkə müstəmləkələrdən illər uzunu daşınmış qızıl-gümüş avropalının maddiyə marağını öldürmüş, onu fərqli yapmışdır? Bəlkə yadellilərin olanımızı əlimizdən alması, bizi dünya malına tamarzı qoyması bu duruma düşməmizə, var-dövlət hərisinə çevrilməmizə nədən olub? Qara gün üçün pul toplamaq, son gününü düşünmək fəlsəfəsinə nə zaman gəlib çıxmışıq? Suallar çox, cavablar olsa da müxtəlif.

Niderland insanı sağlamlığına düşkündür. Sağlam və uzun ömür sürmək üçün hər fürsətdən istifadə edəndir. Uşaqlı-böyüklü, qadınlı-kişili bu fürsətləri dəyərləndirən yüzlərlə, minlərlə insan hər yerdə qarşına çıxa bilər. 80-90 yaşlı adamların idmanı hələ də öz həyatlarının ayrılmaz bir davranışı kimi yaşatmaları isə adamda qibtə oyadır. Bizim həmin yaşdakı qocalarımızın az qala linglə qalxdıqlarını gözüm önündə canlandıranda gördüyüm mənzərə hətta qibtəyə bir az da həsəd qarışaraq özünü göstərir. Futbol oynayanlar, qaçışda özünü sınayanlar hər yerdə var. Səkilərdə axşam-sabah, qış-yay demədən tək-tək, cüt-cüt, hətta bölük-bölük qaçanları müşahidə etmək sıradan bir hadisə. Axşam qaçışlarında xüsusi, fosforlu və ya işıqlı geyimlərdən istifadə olunur. Bu geyimlər ehtimal olunan təhlükələrdən onları qorumağa xidmət edir. Qollarına bağladıqları monometr onlara qan təzyiqlərini, ürəklərinin döyüntüsünü, nə qədər məsafə qət etdiklərini nəzarətdə saxlamağa imkan verir.

Bütün bu pozitiv hallara rəğmən ölkədə siqaret çəkənlərin çoxluğu da diqqətdən yayınmır. Burada siqaret nə qədər baha olsa da, məsələn, "L&M" markalı siqaretin qutusu 6,2 avrodur, ondan istifadə edənlərin sayı da kifayət qədərdir. Ölkədə ən çox açıq tütündən istifadə olunur. Bu tütündən bükmə və doldurma üsulu ilə siqaret hazırlamaq mümkündür. Belədə siqaret 3-4 dəfə ucuz başa gəlir. Bükmə siqaretlər bizim köhnə kişilərin büküdüyü maxorkaya bənzəyir. Tütün qutuları isə mənə qəlyan, çubuq çəkən köhnə kişilərimizin tütün torbalarını xatırladırdı. Siqaret tüstülədən qadınlara hər yerdə rast gələ bilərsən. Yetkinlik yaşına çatmamışlara tütün məmulatlarının satışı qadağan olunsa da, azyaşlıların və yeniyetmələrin siqaret çəkməsinə hər küncdə-bucaqda rastlaşmaq mümkündür. Marketlərin tütün məmulatları satılan bölümlərində mallar qapalı dolablarda saxlanılır və yalnız müştərilər istədikdə dolab açılır. Xüsusi tütün məmulatları mağazalarında isə məhsullar açıq təqdim olunur. Xüsusi avtomatlardan isə tütün məmulatlarını yalnız şəxsiyyət vəsiqəsini qeydiyyatdan keçirməklə almaq olar.

Bütün bu sadaladıqlarımdan sonra mənim Niderlanda gəlməmişdən öncə, bu ölkənin özü və insanları barədə təsəvvürümdə yaratdığım görünüşcə sürreal rəsmləri xatırladan şəkilləri silib atmaqdan, onlar barədə düşüncələrimə utana-utana yeni çəki-düzən verməkdən başqa əlacım qalmadı.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 MART 2022-Cİ İL
№ 005 (152)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## STATİSTİKA İDARƏSİ UNİVERSİTETLƏR HAQQINDA ƏTRAFLI MƏLUMAT YAYIB



Gürcüstanın Milli Statistika İdarəsi 2021-2022-ci tədris ilinin başlanğıcı üçün ali təhsil müəssisələrinin göstəriciləri barədə ətraflı məlumat yayıb.

Məlumata əsasən, Gürcüstanda 2021-2022-ci tədris ili üçün 64 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Bunlardan 19-u dövlət, 45-i isə özəldir. Ali təhsil müəssisələrinin 60,9 faizi Tbilisi şəhərinin payına düşür.

Cari təhsil ilinin başlanğıcında ali təhsil müəssisələrində 159,8 min tələbə qeydə alınmışdır. Bu isə ötən illə müqayisədə 1,6 faiz çoxdur. Tələbələrin ümumi sayının 63,6 %-i dövlət ali təhsil müəssisələrində, 36,4 %-i isə özəl ali təhsil müəssisələrində təhsil alırlar. Tələbələrin ümumi sayının 51,5 faizini qadınlar, 48,5 faizi isə kişilər təşkil edir.

Qeyd edək ki, ali təhsil müəssisələrində 10,5 min professor müəllim işlə təmin olunub. Bu, ötən ilin analoji göstəriciləri ilə müqayisədə 7,0 faiz çoxdur. Professor-müəllimlərin 56,4 faizi qadın, 43,6 faizi isə kişidir. Onların böyük qismi – 39,0 faizi dosentdir.

*Mənbə: etaloni.ge*

## GÜRCÜSTAN ŞƏKƏRİN 95 %-Nİ NƏ RUSİYADAN, NƏ DƏ UKRAYNADAN ALIR



Dünyada ən böyük şəkər ixrac edən Braziliyadır. Gürcüstan da şəkəri əsasən Braziliyadan alır. 2021-ci ildə Gürcüstana 60,4 milyon dolar dəyərində 120,7 min ton şəkər gətirilib.

Gürcüstan alınmış şəkərin demək olar yarısını – 57 min tonunu (28,2 milyon dollar) Braziliyadan alıb. İdxalda növbəti yerləri Türkiyə (14,3 milyon dollar) və Polşa (10,6 milyon dollar) tutur.

Gürcüstana şəkər idxalında Ukrayna səkkizinci yeri (0,1 milyon dollar), Rusiya isə 12-ci yeri tutur (0,1 milyon dollar).

Bu gün (9 mart) Londonun fond birjasında şəkərin tonu 536 dollara çatıb. Bu birillik göstəricilərdə 17 % bahalaşma deməkdir. Şəkərin qiyməti sonuncu dəfə 2016-cı ildə bu qədər artıb.

Rusiya tərəfindən Ukraynaya qarşı müharibə başladıqdan sonra şəkərin qiyməti 5 % artıb.

Statsitika İdarəsinin məlumatına görə, 2021-ci il ərzində Gürcüstan bir ton şəkəri təxminən 499 dollara alırdı.

**2021-ci ildə Gürcüstanın şəkər idxal etdiyi ölkələr:**

- Braziliya – 57 875 ton (28,201 milyon ABŞ dollar);
- Türkiyə – 28 066 ton (14, 271 milyon ABŞ dollar);
- Polşa – 19 717 ton (10,592 milyon ABŞ dollar);
- Meksika – 9000 ton (3,954 milyon ABŞ dollar);
- Almaniya – 2 403 ton (1,290 milyon ABŞ dollar);
- Fransa – 1881 ton (1 milyon ABŞ dollar);
- Niderland – 1 273 ton (610 min ABŞ dollar);
- Belorus – 174,7 ton (101,6 min ABŞ dollar);
- Azərbaycan – 110,1 ton (100 min ABŞ dollar);
- Kolumbiya – 100 ton (59,1 min ABŞ dollar).

*Mənbə: bpn.ge/ bm.ge*

## PƏRİXANIM SOFİYEVA İLƏ BAĞLI ANİMASİYA FİLMİ ÇƏKİLİB



Gürcüstanda müsəlman dünyasının ilk qadın deputatı Pərixanım Sofiyevaya həsr olunmuş animasiya filmi çəkilib.

Qadınların Təşəbbüslərinə Dəstək Qrupu qeyri-hökumət təşkilatının (QHT) layihəsi əsasında hazırlanan “Pərixanım Sofiyeva” adlı qısametrajlı ekran əsəri Tbilisinin “Amirani” kinoteatrında “Rozadan Simona” (“From Rosa to Simone”) Feminist Filmləri Festivalı çərçivəsində ilk dəfə nümayiş etdirilib.

QHT nümayəndəsi Natalia Mçedlişvili “Report”un yerli bürosuna müsahibəsində bildirib ki, P.Sofiyeva cizgi filminin qəhrəmanı kimi həm gender məsələsi, həm də azərbaycanlı xanımın icmasındakı nüfuzu baxımından maraqlı olub: “Araşdırmalar zamanı aşkarladıq ki, Pərixanım Sofiyeva yerli və qadın icmasına qayğı göstərib, nüfuzundan xeyirli məqsədlər üçün istifadə edib”.

Onun sözlərinə görə, ekran əsərinin istehsal prosesinə azərbaycanlı icmadan məsləhətçilər də cəlb olunub: “Animasiya filmi gürcü dilində ingilis dilində altyazılarla təqdim olunub. Cizgi filminin Azərbaycan dilli versiyası da hazırdır və tərəfdaş təşkilatların dəstəyi ilə bu versiyanın azərbaycanlı icma üçün nümayişi də təşkil olunacaq”.

Qeyd edək ki, Qardabani rayonunun Qaracalar kəndindən olan P. Sofiyeva (1884-1953) 1918-ci ildə Tiflis qəzası bələdiyyəsinə bitərəf millət vəkili seçilib. O, tarixə müsəlman dünyasının demokratik yolla seçilən ilk qadın deputat kimi düşüb.

## GÜRCÜSTANA SƏFƏR EDƏNLƏR ÜÇÜN YENİ QAYDALAR QÜVVƏYƏ MİNİB




Martın 1-dən etibarən Gürcüstana səfər edən əcnəbilər üçün sadələşdirilmiş qaydalar qüvvəyə minib. Belə ki, koronavirus əleyhinə tam vaksinasiya kursu keçmiş əcnəbilərdən hava, quru və dəniz sərhədini keçərkən PCR testin mənfi nəticəsini təsdiqləyən arayış və ölkəyə səfərə yollanmazdan öncə onlayn qeydiyyatdan keçmək tələb olunmayacaq.

Peyvənd vurdurmayan xarici ölkə vətəndaşları isə son 72 saat ərzində aparılmış PCR testin neqativ nəticəsinə dair arayış təqdim etməlidirlər və səfərdən öncə onlayn qeydiyyatdan mütləq keçməlidirlər. Bu şəxslər Gürcüstana daxil olduqdan sonra 72 saatın tamamında təkrar testdən keçmək məcburiyyətindən azad olunublar.

Gürcüstan vətəndaşlarına gəlincə, vaksin olunanlar vətənə hava və quru yolla qayıdarkən PCR test təqdim etməyəcəklər və özünütəcrid rejiminə keçməyəcəklər. Peyvənd olunmayanlardan isə son 72 saat ərzində aparılmış PCR testin mənfi nəticəsini təsdiqləyən arayış tələb ediləcək.

Onlar ölkədə olduqları üçüncü günün tamamında təkrar test verməkdən azad olunublar. Əgər vətəndaş Gürcüstana PCR testlə bağlı sənədsiz dönürsə, həmin şəxs 5 gün müddətinə özünü təcrid etməli olacaq.

## RUSİYADAN GÜRCÜSTANA SƏFƏR EDƏNLƏRİN SAYI ARTIB

Gürcüstanın Milli Turizm Administrasiyasının hesabatına əsasən, bu ilin fevral ayında Rusiyadan Gürcüstana səfər edənlərin sayı 20 876 nəfər təşkil edib.

Hesabata görə, ziyarətçilərin sayı aylıq müqayisədə 7 505 nəfər azalıb, illik müqayisədə isə 17 951 nəfər və yaxud 7,1 dəfə artıb.

Hesabat ayında Rusiya Gürcüstana səfər edənlərin sayı baxımından Türkiyədən (29 906 nəfər) sonra ikinci yeri tutub.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.